UOT 373.3/5.

***Ənvər Məhəmməd oğlu Abbasov***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

# Prof. ELBƏYİ MAQSUDOV YARADICILIĞININ İSTİQAMƏTLƏRİ

***Анвар Мухаммед оглу Аббасов***
*зам. директора Института Образования Азербайджанской Республики,*
*доктор философии по педагогике, доцент*

# НАПРАВЛЕНИЯ ТВОРЧЕСТВА ПРОФЕССОРА ЭЛЬБАИ МАГСУДОВА

***Anvar Mahammad Abbasov***
*Deputy Director of the Institute of Education of the Republic of Azerbaijan*
*PhD in Pedagogy, Associate Professor*

# Prof. ELBAYI MAGSUDOV'S CREATIVITY DIRECTIONS

**Xülasə:** Məqalədə prof. Elbəyi Maqsudovun yaradıcılığının müxtəlif istiqamətlərindən bəhs olunur. Elmi-metodik əsərlərinin xüsusiyyətləri təhlil edilir. Azərbaycan dilinin tədrisi metodikası elminin inkişafındakı rolu əsaslandırılır.
***Açar sözlər:*** *yaradıcılıq istiqamətləri, prioritet problemlər, elmlər doktoru, Azərbaycan dili təlimi prosesi, elmi-metodik yaradıcılıq, qrammatik poema*

**Резюме:** В статье рассматриваются различные направления творчества профессора Эльбаи Магсудова. Анализируются особенности научно-методических работ. Обоснована роль ученого в развитии методики преподавания азербайджанского языка.
***Ключевые слова:*** *творческие направления, приоритетные задачи, доктор наук, учебный процесс азербайджанского языка, научно-методическое творчество, грамматическая поэма*

**Summary:** The article deals with from different directions of Prof. Elbayi Magsudov's creativity. İt is analyzed features of scientific-methodical works. The role of the scientist in the development of the teaching methodology of the Azerbaijani language is justified.
***Key words:*** *creative directions, priority problems, doctor of sciences, Azerbaijani language teaching process, scientific-methodical creativity, grammatical poem*

## Sarsıdıcı xəbər



Bu gün 42 illik dostum Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, pedaqogika üzrə elmlər doktoru, professor, Respublikanın əməkdar müəllimi, Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, yazıcı, şair, hər şeydən öncə, böyük insan Elbəyi Sadıq oğlu Maqsudovun vəfatı xəbərini eşidəndə sarsıldım. Bir anlıq onun hələ Gərməçataqda işlədiyi vaxtdan bu günə qədərki illərdə keçirdiyi bəzi çətinlikləri xatırladım. O, həmişə özünün tədqiqatlarını daha peşəkarcasına aparmaq üçün, yenilikləri zamanında qabaqlamaq üçün nələri etmirdi. Elbəyi müəllim zəhməti ilə özünün təkrarsız elm dünyasını yaratmış, istər pedaqogika, istər dilçilik, istər dilin metodikası sahələrində kimsənin demədiklərini demişdi. Həm də bu dediklərini bənzərsiz bir üslubda, orijinal bir tərzdə, rəngarəng formalarda ifadə edə bilmişdi. Hər kəs bu özünəməxsusluqda mükəmməl bir klassikanı aydın hiss edə bilir. Onun yaradıcılığındakı

poetik formada təzahür edən linqvistik mükalimələr, şeir cildinə salınmış bitkilər aləmi, yaxud mənzum nəsihətlər özlüyündə bundan xəbər verir.

**Professor Əziz Əfəndizadə məktəbinin davamçısı**

Prof. Əziz Əfəndizadə XX əsr Azərbaycan pedaqoji fikrinin inkişafında böyük xidmətləri olan görkəmli alim kimi tanınır. O, həyatının yarım əsrə qədərki dövrünü doğma dilimizin ümumtəhsil məktəblərində öyrədilməsi probleminə həsr etmişdi. Bu sahədə həyata keçirilən təhsil siyasətinin, proqram və dərsliklərin metodik və dərs vəsaitlərinin, müəllimlərin təkmilləşdirilməsi işinin nəzəri-metodik cəhətdən həll olunmasına rəhbərlik etmiş və ardıcıl olaraq bu işi istiqamətləndirmişdi. Prioritet problemlərin müəyyənləşdirilməsində, elmi-pedaqoji kadrların hazırlanmasında böyük zəhməti olmuşdu. Daha konkret desək, ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin bütöv bir sistemini hazırlamaqla özünün mükəmməl bir elmi məktəbini yaratmışdı.

Prof. Əziz Əfəndizadənin Azərbaycan dilinin tədrisi metodikası məktəbi özünün yetirmələrinin şəxsində bu gün də yaşayır. Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, pedaqogika üzrə elmlər doktoru, prof. Elbəyi Sadıq oğlu Maqsudov da həmin məktəbin davamçılarından biri idi.

**Ömrün təhsil illəri: şagirdlikdən alimliyə**

Elbəyi Sadıq oğlu Maqsudov 1955-ci il fevralın 16-da Naxçıvan Muxtar Respublikası Babək rayonunun Gərməçataq kəndində anadan olmuşdu. İbtidai təhsilini doğma kəndlərində aldıqdan sonra 1963-cü ildə orta təhsilini Naxçıvan şəhərində davam etdirmişdi. Orta təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra 1972-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialına daxil olmuş və həmin ildən də doğma kəndlərində Azərbaycan dili və ədəbiyyat müəllimi kimi fəaliyyətə başlamışdı. Və bu minvalla o, 25 il orta ümumtəhsil məktəblərində - Gərməçataq kənd orta məktəbində, Naxçıvan şəhərindəki "Xanım qızlar", "Türk oğlanlar liseyi" və 3 saylı rus məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişdi. İşlədiyi müddətdə yaxşı müəllim kimi formalaşmış, iş təcrübəsi yayılmış, rayonda, Muxtar Respublikada və Azərbaycanda keçirilən konfrans və pedaqoji mühazirələrdə maraqlı mövzularla çıxışlar etmişdi. 1988-ci ildə Səmərqənddə keçirilən VIII Ümumittifaq pedaqoji mühazirələrindəki çıxışı bir çox mütəxəssislər tərəfindən böyük maraq və rəğbətlə qarşılanmışdı.

Hələ kənd məktəbində işləyərkən Elbəyi müəllim bir çox metodik yazıları, poetik-praktik şeirləri, dilimizlə bağlı krossvordları ilə mətbuatda, xüsusilə "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalında tez-tez maraqlı və yaddaqalan çıxışlar edirdi. Onun bu fəaliyyəti bir çox alimlərlə yanaşı, Azərbaycanın görkəmli dilçi-metodisti pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim mərhum Əziz Rəcəb oğlu Əfəndizadənin də diqqətini cəlb edir. Professor Əziz Əfəndizadə ona aspiranturada təhsilini davam etdirməyi məsləhət görür.

Elbəyi müəllim 1986-cı ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun (indiki Təhsil İnstitutunun) aspiranturasına daxil olmuş, 1992-ci ildə "Azərbaycan dili dərslərində fənlərarası əlaqədən (rus dili fənni ilə) istifadənin imkanları və yolları" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdı.

Elbəyi müəllim 1994-cü ildən Naxçıvan Dövlət Universitetində fəaliyyətə başlamışdı. 1994-2004-cü illərdə Naxçıvan Dövlət Universiteti Elmi şurasının katibi və "Fənlərin tədrisi metodikası" kafedrasının müəllimi, sonra isə baş müəllimi, dosenti, kafedra müdiri vəzifələrində işləmişdi.

Elbəyi Maqsudov bir neçə il türkiyəli tələbələrə Azərbaycan dilini öyrətmiş, bu iki qohum dilin oxşar və fərqli əlamətləri onun diqqətini cəlb etmiş və bu məsələni tədqiqat obyektinə çevirmişdi. 2008-ci ildə "Azərbaycan və türk dillərinin müqayisəli tədrisinin tələbələrin linqvistik təfəkkürünün inkişaf etdirilməsinə təsiri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almışdı. 2014-cü ildə isə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə ona professor elmi adı verilmişdi.

Elbəyi Maqsudovun kənd müəllimliyindən ta universitet müəllimliyinə qədərki həyat yolu maraqlı bir salnamədir. Burada kəndin özünəməxsus qayğıları doğma Gərməçataqdan uzaqlaşmaq zərurəti, köçkünlük həyatının çətin-

likləri, təhsil almaq, inkişaf etmək yolundakı kəşməkeşlər bu salnamənin ən yadda qalan görüntüləridir. Bu görüntülər zaman-zaman, günbəgün dəyişərək tarixiləşmiş və Elbəyi müəllimin qazandığı nailiyyətlərin haradan qaynaqlandığını, necə yarandığını dəyərləndirməyə imkan verən ən diqqətçəkən anlara çevrilmişdi.

**Maraqlı nəzəri-metodik araşdırmalar müəllifi**

Müntəzəm olaraq öz üzərində çalışan, beynəlxalq və respublika miqyaslı elmi konfranslarda çıxışlar edən prof. Elbəyi Maqsudov 150-dən çox elmi məqalənin, 15 kitabın və 4 proqramın (magistr və bakalavr hazırlığı üçün) müəllifi olmuşdur.

Bu gün Azərbaycan dilinin tədrisi metodikası elmində Elbəyi Maqsudovun xüsusi yeri vardır. O, 80-ci illərin əvvəllərindən etibarən Azərbaycan dili təliminin, eləcə də linqvistikanın bir sıra aktual problemləri ilə bağlı araşdırmalar aparmağa başlamış, elmin, eləcə də təhsilin müasir məsələlərinin aydınlaşdırılmasına səy göstərmişdi.

O, müəllim işləyərkən Azərbaycan dili təlimi prosesində bir sıra məsələlərin araşdırılmasına ehtiyac duymuş, onların öyrənilməsini qarşısına məqsəd kimi qoymuşdu. Onu ilkin mərhələdə Azərbaycan dili təlimini maraqlı qurmaq daha çox düşündürmüş və bütöv yaradıcılığı boyu bu problemlərin öyrənilməsi istiqamətində araşdırmalar aparmışdı. 80-ci illərin əvvəllərindən başlayaraq bir-birinin ardınca "Fonetikanın tədrisində folklor nümunələrindən, istifadə" (1983), "Dilimiz, dərsliklərimiz və təkliflərimiz" (1991), "Azərbaycan dili dərslərində qrammatik tapmacalardan istifadə təcrübəsindən" (1997), "Ana dili dərslərində "Kitabi-Dədə Qorqud" dastanlarından istifadə təcrübəsindən" (1998), "Azərbaycan dili dərslərində xalq mahnılarından istifadə (2002) və sair məqalələrini yazmışdı.

Elbəyi müəllim pedaqoji fəaliyyəti zamanı dərk edir ki, Azərbaycan dili dərslərində şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək, cümlə qurmaq və mətn tərtib etmək bacarıqlarını formalaşdırmaq üçün müxtəlif üslubda olan təlim materiallarından, xüsusən bədii mətnlərdən istifadə etmək, didaktik cəhətdən əhəmiyyətlidir. Bunun üçün əlavə imkanlar axtarmaq və materiallar toplamaq zəruridir. Elbəyi müəllim bu zərurəti bir praktik müəllim kimi dərk etməklə yanaşı, həm də bir tədqiqatçı, metodist alim kimi araşdırmalar aparmış, yaradıcılığında şifahi xalq ədəbiyyatı nümunələrindən istifadəyə daha çox yer ayırmışdı. Heç şübhəsiz, bu, Azərbaycan dilini xalqın zəngin dil baryeri əsasında mənimsətməklə yanaşı, həm də şagirdlərdə Azərbaycan dilinə xalq ifadələri, deyimləri əsasında məhəbbət, eləcə də dili öyrənməyə maraq hissi yaratmaqdan irəli gəlmişdi.

Elbəyi Maqsudovun elmi-metodik yaradıcılığında əsas yeri dillərin müqayisəli məsələləri tutmuş və bu cəhət onu dil metodistlərindən fərqləndirmişdi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Azərbaycan dilinin tədrisi metodikasında fənlərarası əlaqə zəruri prinsiplərdən biri kimi qəbul olunmuşdu. Burada digər dillərlə əlaqə xüsusi olaraq əhəmiyyət daşıyır. Lakin problem nə qədər aktual olsa da, onun qədərincə öyrənilmədiyi də məlumdur. Təcrübə də onu göstərir ki, Azərbaycan dilini, özünün bazasında öyrətməklə yanaşı, həm də onu şagirdlərin bildiyi dillərlə müqayisədə mənimsətmək didaktik cəhətdən əhəmiyyət daşıyır. Şagirdlərdə tutuşdurmaq, müqayisələr, ümumiləşdirmələr aparmaq, nəticəyə gəlmək kimi bacarıqları formalaşdırmaqla, onlarda təfəkkür fəallığının yaranmasına, ümumi inkişafa səbəb olur. Elbəyi müəllim bu məsələləri əhəmiyyətlilik baxımından daha aydın dərk etmiş, onu özünün yaradıcılıq leytmotivi kimi qəbul etmişdi. Azərbaycan dilini müxtəlif dillərlə müqayisəli öyrətməyi apardığı sistemli araşdırmalarının obyektinə çevirmişdi. Onun "Azərbaycan dili təliminin qohum olmayan dillə əlaqələndirilməsi təcrübəsindən" (1988), "Azərbaycan dili dərslərinin rus dili ilə əlaqəli tədrisi təcrübəsindən" (1987), "Azərbaycan dilinin rus dili ilə əlaqələndirilməsi" (1988), "Azərbaycan dili dərslərində rus dili ilə əlaqə imkanlarından istifadəyə dair" (1990) kimi məqalələrində Azərbaycan dilinin rus dili ilə əlaqəli öyrədilməsi məsələsi bir problem kimi qoyulmuşdur. Heç təsadüfi deyil ki, o, "Azərbaycan dili dərslərində fənlərarası əlaqədən (rus dili fənni ilə) istifadənin imkan və yolları" (1992) mövzusunda namizədlik dissertasiyasını da həmin məsələyə həsr etmişdi.

Elbəyi Maqsudovun 2003-cü ildə "Dillərin müqayisəli tədrisi metodikası" və "Dillərarası əlaqə təliminin metodikası" adlı monoqrafiyaları

nəşr olunmuşdu. Adlarından göründüyü kimi, bu araşdırmalar dillərin əlaqəli tədrisi probleminə həsr olunmaqla bir daha müəllifin maraq dairəsini ifadə edirdi. Həm də onun Azərbaycan dili təlimi kontekstində irəli sürdüyü müddəaların daha geniş və konseptual xarakter daşıdığını aydın əks elətdirirdi. O, tədqiqatın "dillərin müqayisəli tədrisi", digərində isə "dillərin əlaqəli təlimi" anlayışlarından istifadə etməklə özünün fəaliyyət dairəsinə bir fərqlilik gətirir və tədqiqatındakı metodik məzmunla yanaşı, ümumididaktik əhval-ruhiyyəni də qabarıqlaşdırırdı. Eyni zamanda praktik istiqamətdə apardığı araşdırmalarına bir fundamental rəng qatırdı. 1999-cu ildə çap etdirdiyi "Ana dili təlimində dillərarası əlaqədən istifadənin ümumi məsələləri" adlı metodik vəsaitində də həmin ənənəyə sadiq qalmışdı.

Ümumiyyətlə, tədqiqatçı Azərbaycan dili təlimini dillərarası əlaqə kontekstində qurmaqla bağlı metodik müddəasını yalnız rus dili ilə deyil, eyni zamanda, ingilis, türk, fars dilləri ilə bağlı nümunələrlə də əsaslandırmışdı. Bu problemlə bağlı "Dil dərslərində fars dili ilə əlaqə imkanlarından istifadə" (1999) adlı yazdığı məqaləni İran Respublikasında çap etdirmişdi. Eyni zamanda 2000-ci ildə onun "Azərbaycan dili dərslərində ingilis dili ilə əlaqə imkanlarından istifadə" haqqında məqaləsi çapdan çıxmışdı. O, həmin ildə həm də "Azərbaycanca-türkcə, türkcə-Azərbaycanca qarşılıqlı dilçilik terminləri lüğəti" (2000) kitabını nəşr etdirib oxucuların mühakiməsinə vermişdi.

Elbəyi Maqsudovun elmi yaradıcılığının bir istiqamətini də ali məktəblərdə Azərbaycan dili təlimi məsələləri təşkil etmişdi. Əsasən 90-cı illərin sonunda alimin yaradıcılığında diqqəti cəlb edən bu cəhət sonralar daha geniş vüsət almışdı. O, 2008-ci ildə həmin problemə həsr olunmuş "Azərbaycan və türk dillərinin müqayisəli tədrisinin tələblərin linqvistik təfəkkürünün inkişaf etdirilməsinə təsiri" mövzusunda dissertasiyası müdafiə edərək pedaqogika üzrə elmlər doktoru elmi dərəcə almışdı.

Elbəyi müəllim Azərbaycan dilinin türk dili ilə əlaqəli tədrisinə dair elmi-metodik müddəalarını "Azərbaycan dili dərslərinin türk dili ilə əlaqəli tədrisi linqvistik təfəkkürün inkişaf etdirilməsi vasitəsi kimi" (2003), "Azərbaycan dilinin Türkiyə türkcəsi ilə əlaqəli tədrisi üçün çalışmalar" (2004), "Sintaksisin tədrisində türk dili ilə əlaqə imkanlarından istifadə" (2005), "Dillərin müqayisəli tədrisi təfəkkürün inkişaf etdirilməsi vasitəsi kimi" (2006) və sair məqalələrində reallaşdıraraq fəal oxucu kütlələrinin mühakiməsinə vermişdi. Hətta o, bu problemlə bağlı fikirlərini bir monoqrafiyada ümumiləşdirərək "Dillərin müqayisəli tədrisi: imkanlar, vasitələr" (2004) adı ilə də nəşr etdirmişdi.

Elbəyi Maqsudovun yaradıcılığında təlim materiallarını xüsusi qaydada hazırlamaq ayrıca bir istiqamət kimi diqqəti cəlb etmişdi. Burada öyrədilən dil materiallarının məzmunu, xarakteri ilə yanaşı, onun təqdim olunma forması daha çox maraq doğurmuşdur. Demək olar ki, onun hazırladığı əksər didaktik materiallarda seir formasından istifadə olunmuşdur. Müəllif özünün "Orfoqrafik vərdişlərin möhkəmləndirilməsində poetik-praktik çalışmalardan istifadə" (2004), "Poetik-praktik Azərbaycan dili" (2004), "Leksika, frazeologiya və sözün tərkibinin mənimsədilməsində poetik-praktik çalışmalardan istifadə" (2008) və sair əsərlərində bu məsələnin şərh olunmasına xüsusi yer ayırmış, öz imkanların əsaslanaraq hazırladığı praktik nümunələri istifadə olunmaq üçün təqdim etmişdi.

Elbəyi müəllim həm də ali məktəblərdə Azərbaycan dili təliminin məzmunu problemi ilə də məşğul olmuşdu. O, bu vaxta qədər magistratura üçün "Ana dili təlimində durğu işarələri, yazılışı çətin sözlərin orfoqrafiyası və orfoepiyası təlimi" (1998), "Linqvistik təhlilin elmi-metodik əsasları" (2009) adda proqramları işləyib hazırlamışdı.

Professor Əziz Əfəndizadənin təbirincə demiş olsaq, hər bir linqvistik anlayışın öyrədilməsi metodikası, ilk növbədə, onun öz təbiətindən irəli gəlir. Ona görə də yaxşı metodist olmaq üçün dilin özünü yaxşı bilmək lazımdır. Təcrübələr onu göstərir ki, yaxşı metodistlər çox hallarda öz araşdırmalarında məşğul olduqları dilin linqvistik əsaslarına müraciət edirlər. Elbəyi müəllim də özünün yaradıcılığı boyu bu zərurətdən qaça bilməmiş, Azərbaycan dili təlimində çətinlik yaradan bir sıra dilçilik məsələlərini araşdırmalı olmuş, onlara münasibət bildirmişdi. Həmin araşdırmalar nəticə etibarı ilə "Həmheca sözlərin bəzi xüsusiyyətləri haqqında" (1999), "XIX əsrin sonunda Naxcıvan dialekt və şivələrində işlənən sözlər XX əsr abidələrində" (1999), "Ana dilimizdə effemizmlər" (2000),

"Məsdər şəkilçisinin -ma, -mə forması haqqında" (2000), "Azərbaycan dilində söz şəkilçiləri" (2001), "Fellərin digər nitq hissələri ilə omoformluğu" (2001), "Azərbaycan dilində əkiz cümlələr" (2002), "Azərbaycan dilində işlənən bəzi qeyri-məhsuldar şəkilçilər haqqında düşüncələr" (2005), "Sözlər də insan kimidir" (2007), Azərbaycan dilindəki bəzi omonim sözlərin türk mənşəli qarşılıqları haqqında" (2009) kitab və məqalələr formasında çap olunmuşdu.

**Poetik əsərlər müəllifi**

Elbəyi Maqsudov Azərbaycan dilinin tədrisi metodikası ilə bağlı maraqlı tədqiqatların müəllifi olduğu kimi, həm də gözəl şair idi. Poetik düşüncələr istedadlı bir insan kimi onun elmi təfəkkürünü cilalamaqla yanaşı, əsərlərinə bədii-emosional bir ruh verirdi. Elə bu səbəbdən onun yüksək bədii keyfiyyətlərə malik şeirləri, eləcə də məna və məndəricəsinə görə sevilən mənzumələri oxucular tərəfindən böyük maraq hissi ilə qarşılanırdı. "Təmsillər", "Poetik türkəçarələr", "Poetik-praktik Azərbaycan dili" kitabları, "Cümlələrin söhbəti" adlı qrammatik poema, "Durğu işarələri" adlı birpərdəli mənzum pyes və s. bədii əsərlər müəllifinin qeyri-adi obrazlı təfəkkürə malik olmasından xəbər verirdi. Onun dillə bağlı yaratdığı yeni, orijinal məntiqi şeirləri şagirdlər və müəllimlər tərəfindən böyük maraqla oxunurdu. Təksaitli bayatı və gəraylılar, dodaqdəydilər, paronimli və omonimli yanıltmacalar, poetik türkəçarələr və sair bu tipli yaradıcılıq nümunələri orijinal, maraqlı və düşündürücü keyfiyyətləri ilə daha çox diqqəti cəlb edirdi. "Ürək bir dünyadır" (2001), "Poetik türkəcarələr" (2012) şeir kitabları onun bir şair kimi istedadını açıq-aydın göstərirdi. Bu barədə E. Maqsudovun haqqında bəhs edən mütəxəssis alimlər dəfələrlə məqalələr yazmış, çıxışlar edərək fikirlər söyləmişlər. "Poetik-praktik Azərbaycan dili" kitabının 09 aprel 2012-ci il tarixdə keçirilən ilk təqdimatında akademik İsa Həbibbəyli öz fikrini belə ifadə etmişdi: "Mən deyərdim ki, "Poetik-praktik Azərbaycan dili" kitabı Elbəyi Maqsudovun yaratdığı dil abidəsidir. Ana dili abidəsidir, ana dili çırağıdır. İşıq saçır ana dilinə - bütövlükdə ana dilimizin mühitinə, incəliklərinə, dərinliyinə, zənginliyinə işıq saçır. Bu, çox böyük zəhmətin nəticəsidir. Azərbaycanda, eləcə də dünyada ana dili elminin qrammatikasını poetik dillə yaratmağa girişən adamlar, ümumiyyətlə, azdır və ya yoxdur. Dünyada barmaqla sayılacaq qədər azdır elmi poeziyaya gətirənlər. Bu, çox ciddi bir işdir. Mən bunu universitetimizin, dilçiliyimizin, metodikamızın, bizim elmi mühitimizin böyük nailiyyəti hesab edirəm. Bu, Azərbaycan dili elmində böyük nailiyyətdir".

Elbəyi Maqsudovun dərin məzmunlu, həzin, lirik şeirlərinə tanınmış bəstəkarlar musiqi əsərləri bəstələmişlər. Bəstəkar Kamal Əhmədovun "Vətəndir", "Anacan", "Zəfər marşı", Şəmsəddin Qasımovun "Ata", Nazim Quliyevin "Naxçıvanlılar", Əqidə Ələkbərovanın "Həbibə" və s. mahnıları belə uğurlu əsərlərdən hesab olunur.

Elbəyi müəllim həm də araşdırmalarının nəticələrinin müzakirə olunması və tətbiqi ilə bağlı geniş iş aparmışdır. O, Türkiyə, Rusiya, İran, Özbəkistan və Pakistan kimi ölkələrin müxtəlif əyalətlərində, xüsusən Naxçıvan, Bakı, Səmərqənd, Moskva, Ankara, Təbriz şəhərlərində keçirilən beynəlxalq konfranslarda, seminarlarda məruzə və çıxışlarla fəal iştirak etmişdir.

Pedaqogika üzrə elmlər doktoru, professor, Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, yazıcı, şair Elbəyi Maqsudovun fəaliyyəti keçmiş SSRİ Təhsil Nazirliyinin, Elmlər Akademiyasının, Türkiyə Cümhuriyyəti Kültür Bakanlığının, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, pedaqoji cəmiyyətlərin müxtəlif fəxri fərmanları ilə təltif olunmuşdur.

2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ona "Əməkdar müəllim" fəxri adı verilmişdir.

**Son söz əvəzi**

...Deməli sözüm çoxdur. Nə qədər danışsam da, qurtaran deyil. Ən çox siqləti olan sözü seçsəm belə, yenə də demək istədiyimi deyə bilməyəcəyəm. Ən böyük söz yoxluqdur. İstədiyin bir insanın dünyasını dəyişməsi. Başqa bir dünyaya köç etməsi. Sən onu artıq heç bir vaxt görməyəcəksən. Sənin gördüklərin və bildiklərin yalnız onun yoxluğundan ibarət olacaqdır. Ən dəhşətlisi də odur ki, sən bu yoxluqla barışmalı olacaqsan. Nə yaxşı ki qəlb dünyamız var. Daxilimizdən qopub gələn həzin bir məhəbbət sədası var. Dostluq məhəbbətinin sədası. Sənin müqəddəs ruhunun məskunlaşdığı bir yer. Sən həmişə o yerdə bizimlə birgə olacaqsan. Bizim məhəbbətimiz sənin ruhunun keşiyində duracaqdır.

Əlvida, ƏZİZ DOST! ALLAH Sənə rəhmət eləsin! Yerin Behişt olsun!

**Problemin aktuallığı.** Azərbaycan dili təliminin səmərə və keyfiyyətinin yüksəldilməsində aktual hesab edilən elmi-nəzəri ənənələrin öyrənilib ümumiləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Onlara müraciət etmək indiki zamanda dil təlimi ilə bağlı tədqiqatların istiqamətlənməsinə təsir göstərir.

**Problemin elmi yeniliyi.** Prof. Elbəyi Maqsudovun elmi yaradıcılığının istiqamətləri öyrənilmiş və Azərbaycan dilinin tədrisi metodikası elminə təsiri müəyyənləşdirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Araşdırmanın nəticələrindən Azərbaycan dilinin tədrisi metodikası kursu üzrə tarixi məsələlərin öyrənilməsi zamanı və müəllimlərin elmi-metodik hazırlığı ilə bağlı aparılacaq təlim kurslarında istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. https://az.wikipedia.org/wiki/Elbəyi_Sadiq
2. http://ndu.edu.az/az/news/view/501/
3. Ə. Abbasov, Ə. Əfəndizadə məktəbinin davamçısı. "Azərbaycan müəllimi" qəz., 2015, 14 fevral
4. E. Maqsudov - dilçi alim, vətənpərvər şair 60 yaşın işığında ... http://anl.az/down/meqale/zaman/2015/fevral/419642.htm
5. Ə. Əfəndizadə məktəbinin davamçısı. Pedaqogika üzrə elmlər ... www.anl.az/down/meqale/az_muellimi/2015/.../421543.htm
6. E. Sadıqov. Poetik türkəçarələr. Naxçıvan: Əcəmi, 2012.
7. Azərbaycan və türk dili fonetikasının əlaqəli tədrisi ... - Kültür Evreniwww.kulturevreni.com/4-374.pdf

E-mail: e.abbasov@arti.ed.az

**Rəyçi**: *ped.ü.elm.dok., prof.* A.N. Abbasov
**Redaksiyaya daxil olub: 05.06.2018**